# Xalq Bank Zəlimxan Yaqubun şeirlər toplusunun təqdimatını keçirdi



Xalq Bank Azərbaycan xalqının mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsi kimi nəcib və vətənpərvər missiyasına sadiq olaraq "Xalq Əmanəti" layihəsinin iyirminci, yubiley buraxılışını təqdim etmişdir. Xalq Bankın Baş ofisinin rəsm salonunda məhdud sayda qonaqlar - tanınmış şair və yazıçılar, naşir və ictimai xadimlər çevrəsində "Zəlimxan Yaqub. Seçilmiş əsərləri" poetik toplusunun təqdimat mərasimi keçirilmişdir.

Kitabın təqdimatı pandemiya ilə bağlı çox dar çevrədə keçirildi. Tədbirdə millət vəkili, AMEA-nın həqiqi üzvü, kitabın Son sözünün müəllifi Nizami Cəfərov, millət vəkili, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, "Ədəbiyyat qəzeti"nin baş redaktoru, kitabın tərtibçilərindən Azər Turan, nəşrin redaktoru şair Səlim Babullaoğlu, Zəlimxan Yaqubun yaradıcılığının tədqiqatçısı, Azərbaycan Aşıqlar Birliyinin katibi, toplunun həmtərtibçisi Musa Nəbioğlu və şairin oğlu Bəhlul Yaqubov iştirak edirdi.

565 səhifəlik kitab nəfis tərtibata nəşr edilib.

Tədbiri açıb qonaqları salamlayan akademik Nizami Cəfərov Xalq Bankın "Xalq Əmanəti" layihəsinin əhəmiyyətini vurğulayaraq dedi ki, bu layihə hər yeni nəşri ilə mədəniyyət xadimlərinin qəlbini fərəhləndirir və gözəl kitab və albomları əldə edənlərin təşəkkürünə səbəb olur. Akademik layihənin bundan əvvəlki buraxılışlarından danışıb, onların rəngarəngliyi və gözəl dizaynına diqqət çəkdi.

Nizami Cəfərov bildirdi ki, Zəlimxan Yaqubun yaradıcılığı ölkənin ədəbi-mədəni həyatında ona görə bir olay oldu ki, şair təkcə öz xalqının folklor təfəkkürünün mənimsənilməsi ilə kifayətlənmədi. O, həm Azərbaycan, həm də dünya ədəbiyyatının əsas bədii ideya və imkanlarını dərindən öyrənir və tədqiq edirdi, öz bədii üslubunu tapmaq yolunda gərgin, ardıcıl və məhsuldar axtarışları isə Zəlimxanı başqalarından fərqləndirib ona şöhrət gətirdi. Təsadüfi deyil ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 50 illiyi münasibətilə şairə yazdığı məktubda demişdir: "Siz müasir ədəbiyyatımızda zəngin şeir ənənələrini yaşadan şairlər nəslinə mənsub olan sənətkarlarımızdansınız. Xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən şifahi xalq yaradıcılığından ustalıqla bəhrələnməklə Siz Azərbaycan poeziyasının inciləri səviyyəsinə qalxa bilən nəzm əsərləri yaratmısınız". Azərbaycan Prezidenti İlham Əliyev haqlı olaraq Zəlimxan Yaqubu "müasir ədəbiyyatın canlı klassiki" adlandırmışdı, çünki o, hər bir yeni şeiri ilə özünün ümumtürk ədəbiyyatının qədim köklərinə bağlılığını təsdiqləyirdi.

Zəlimxan Yaqub - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında ilk dəyərli əsərləri yaratmış şair-ideoloqdur. "Böyük ömrün dastanı" adlı əsərində Onun milli dövlət quruculuğu missiyası ustalıqla tərənnüm edilir.




Tədbirdə Zəlimxan Yaqubun yaradıcılığı barədə ətraflı çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, millət vəkili, akademik İsa Həbibbəyli qeyd etdi ki, xalqına ürəkdən, canı və qanı ilə bağlı olan, onun ruhunun ötürücüsünə çevrilən şairə böyük ümumxalq məhəbbətinin sirri onun Azərbaycançılığından, türkçülüyündən, vətənpərvərliyindən, irfanlığından, Ana dilimizə olan böyük sevgisindən irəli gəlir.

Poetik toplunun tərtibatçılarından biri, tənqidçi-publisist, əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan nəcib layihəsinə görə Xalq Banka təşəkkürünü bildirərək qeyd etdi ki, "Xalq Əmanəti" layihəsi çərçivəsində Azərbaycan tarixi, ədəbiyyatı və rəssamlığı üçün xüsusi əhəmiyyət kəsb edən kitablar buraxılmışdır. Tərtibçi Azərbaycan poeziyasına həsr olunmuş nəşrləri, məsələn, Mirzə Şəfi Vazehin əsərlərinin toplusunu, Azərbaycan aşıq poeziyası antologiyasını, Mikayıl Müşfiqin, Məmməd Arazın, Xəlil Rza Ulutürkün və Hüseyn Arifin şeirlər toplusunu xüsusilə vurğuladı. Hazırki iyirminci yubiley nəşri xalq şairi Zəlimxan Yaqubun yaradıcılığına həsr olunmuşdur,- deyə Azər Turan bildirdi, - və mən hesab edirəm ki, bu kitab Zəlimxan Yaqubun yaradıcılığını, şairin poetik obrazını daha aydın, bütün zənginliyi ilə göstərən bir nəşrdir. Kitabda Xalq şairi Zəlimxan Yaqubun ömür yoluna və poetik yaradıcılığının bütün tərəflərinə işıq salınıb.

Z.Yaqubun poetik irsi çağdaş türk dünyası poeziyasında ən mühüm yerlərdən birini tutur. Biz tərtibçi olaraq Z.Yaqubun həyat və poeziya yoluna işıq salmağa çalışdıq və yəqin ki, bu kitab oxucuların sevə-sevə qəbul edəcəkləri bir hədiyyə olacaq. İnanıram ki, Xalq Bank "Xalq Əmanəti" layihəsində bu şərəfli missiyanı davam etdirəcək.

Azərbaycan Aşıqlar birliyinin katibi, əməkdar mədəniyyət işçisi, Z.Yaqub yaradıcılığının sadiq tədqiqatçısı Musa Nəbioğlu "mən xalq şairinin çox kitabını nəşrə hazırlamışam, ancaq etiraf etməliyəm ki, bütün bu kitabların arasında mənim üçün ən əzizi və qiymətlisi bizim "Xalq Əmanəti" layihəsi çərçivəsində üzərində işlədiyimiz nəşrdir". İlk öncə, ona görə ki, bu toplu şairin vəfatından sonra onun əsərlərinin ilk böyük nəşridir. Diqqətçəkən məqamlardan biri də odur ki, bu toplu on ildir gerçəkləşməkdə olan bu layihənin iyirminci, yubiley buraxılışıdır.

Bütün Z.Yaqub poeziyası vurğunları və pərəstişkarları adından Musa Nəbioğlu layihə iştirakçılarının hamısına sonsuz təşəkkürünü bildirdi və qeyd etdi ki, toplu üzərində işləyərkən onlar Azər Turanla birlikdə çalışıblar ki, seçilmiş poetik nümunələrdə şairin yaradıcılığının bütün aspekt və xüsusiyyətləri öz əksini tapsın.

Tədbirin yekununda ailəsi adından şairin oğlu Bəhlul Yaqubov çıxış etdi:

- Z.Yaqubun şeirlər toplusunun nəşr olunduğunu eşitdikdə mən böyük minnətdarlıq və sevinc hissi duydum. Kitab çox gözəl cildlənmiş, topluya daxil edilmiş əsərlər hörmət, məhəbbət və böyük məsuliyyət hissi ilə seçilib yığılmışdır. Zəlimxan Yaqubun oğlu və ailəsinin nümayəndəsi kimi, bu mənim qəlbimdə sonsuz fəxarət və bütün yaradıcı heyətə dərin minnətdarlıq hissi doğurur.

Şairlərin bir çoxu özünün incə daxili təbiətinə görə öncəgörən olur və atam bir neçə il əvvəl Azərbaycanın Qarabağın azad olunmasındakı möhtəşəm qələbəsini sanki görmüşdü. Z.Yaqub bir dəfə yazmışdı:

*Doğan günəşdir sökülən danın*
*Alar qisasını tökülən qanın.*
*Ucaldar başını Azərbaycanın*
*Qələbə, qələbə, ancaq qələbə!*

Və gerçəkdən də bu qələbəsi ilə cənab Prezident İlham Əliyev və bizim qəhrəman ordumuz ölkəmizin başını bütün dünyada ucaltdı və mən şübhə etmirəm ki, Zəlimxan Yaqubun ruhu bizim bu tarixi qələbəyə sevindi, axı o, bunu öncədən duymuş və şeirlərində tərənnüm etmişdi!

Qeyd edək ki, "Xalq Əmanəti" layihəsi ASC "Xalq" Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir.